AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№337/4** **26 noyabr 2021-ci il**

2021-ci ilin I yarımilliyi üzrə Palatanın üzvləri tərəfindən təqdim edilən hesabatların təhlili zamanı məcburi auditdən keçməli olan təsərrüfat subyektlərini könüllü audit subyekti kimi göstərmiş auditor təşkilatları və sərbəst auditorlara qarşı müvafiq inzibati tədbirlərin görülməsi barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 1.8-ci "Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinə müvafiq olaraq 2021-ci ilin I yarımilliyi üzrə Palatanın üzvləri tərəfindən təqdim edilən hesabatların təhlili zamanı məcburi auditdən keçməli olan təsərrüfat subyektlərinin könüllü audit subyekti kimi göstərilməsinin müəyyən edilməsi ilə əlaqədar Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi V.Cavadov tərəfindən təqdim edilmiş məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. 2021-ci ilin I yarımilliyi üzrə Palatanın üzvləri tərəfindən təqdim edilən hesabatların təhlili zamanı məcburi auditdən keçməli olan təsərrüfat subyektlərini könüllü audit subyekti kimi göstərmiş auditor təşkilatları və sərbəst auditorların müəyyən edilməsinə dair Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi V.Cavadovun məlumatı nəzərə alınsın (əlavə olunur).

2. Araşdırma zamanı məcburi auditdən keçməli olan təsərrüfat subyektlərini könüllü audit subyekti kimi göstərmiş aşağıdakı auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların nəzərlərinə çatdırılsın ki, gələcəkdə belə hallar təkrar olunarsa onlar yüksək risk qrupuna daxil edilməklə barələrində inzibati tənbeh tədbirləri görüləcəkdir:

Auditor təşkilatları:

- "AUDİT CONSULTİNG 17" MMC (direktor – Nazim Cəfərov);
- "ATC Services" MMC (direktor – Orxan Rzayev);
- "Global Audit" MMC (direktor – Azər Pirimov);
- "Global and Legal Audit" MMC (direktor – Rüfət Qarayev);
- "Kaspian Audit Kompani" MMC (direktor – Əlibala Məhərrəmzadə);
- "SME Audit" MMC (direktor – Təbriz Mirzəyev);
- "SR Audit Solutions" MMC (direktor – Səftər Vəlizadə);
- "RM Audit" MMC (direktor – Rasət Miriyev);
- "Tax Audit and Consulting Services" MMC (direktor – Lalə Abbasova).

Sərbəst auditorlar:

- Musayev Raul Adıgözəl oğlu;
- Musayev Adıgözəl Maqsud oğlu;
- Mikayılzadə Raqif Rami oğlu.

3. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki:

3.1. Bir həftə müddətində bu qərarın 2-ci bəndində adları qeyd edilən auditor təşkilatlarına və sərbəst auditorlara xəbərdarlıq məktubunun göndərilməsi təmin edilsin.

3.2. Bir həftə müddətində bu qərarın mətninin Auditorlar Palatasının üzvlərinə göndərilməsi təmin edilsin.

4. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

Şuranın sədri **Vahid Novruzov**